**Türkiyə Respublikasının Ankara şəhərində "Milli statistika nümayəndələri üçün meşə məhsulları statistikası"na dair seminar keçirilmişdir.**




Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Vüqar Məmmədəlizadə 2014-cü ilin 27-28 may tarixlərində Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyası və Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı tərəfindən Türkiyə Respublikasının Ankara şəhərində təşkil edilmiş "Milli statistika nümayəndələri üçün meşə məhsulları statistikası"na dair seminarda iştirak etmişdir.

Seminarın keçirilməsində əsas məqsəd iştirakçı ölkələr arasında mövcud əlaqələri möhkəmlətmək və daha da genişləndirmək, iştirakçı ölkələrin məlumatlardan birgə istifadəsini təşviq etmək, milli səviyyədə meşəçilik statistikasına dair məlumatlara nəzər salmaq və bu sahədə əsas zəif cəhətləri və məhdudiyyətləri araşdırmaq və BMT AİK və FAO tərəfindən buraxılan cari və gələcək statistik məcmuələrin yaxşılaşdırılmasından ibarət olmuşdur.

Seminarda 11 ölkənin (Azərbaycan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldava, Ukrayna, Özbəkistan, Tacikstan, Türkmənistan, Ermənistan) statistika qurumlarından, eləcə də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının və Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə FAO-nun Mərkəzi Asiya üzrə subregional ofisinin əməkdaşı Əkrəm Yazıçı açaraq öz çıxışında seminarın aktuallığını qeyd etmiş və meşəçilik statistikasının vacibliyini vurğulayaraq hər kəsi seminarın gedişatında fəal olmağa çağırmışdır.

Ümumilikdə 2 gün davam edən tədbir əsasən iştirakçı ölkələrdə meşəçilik statistikasına dair məlumatların toplanmasına, məlumatların toplanması metodologiyasına, əldə olunan məlumatların təhlilinə, yayılmasına və s. məsələlərə dair ölkələr tərəfindən hazırlanmış təqdimatlar əsasında keçirilmişdir.

Sonda bu cür seminarların təşkilinin BMT AİK və FAO üçün məlumat və təcrübə mübadiləsi üçün olan əhəmiyyətindən danışılaraq qeyd edilmişdir ki, 1984-cü ildən etibarən meşəçilik statistikasına dair 100 ölkədən 470 nəfərin iştirakı ilə 23 milli və regional səviyyədə seminarlar təşkil edilmiş və bu mövzuya dair seminarlar gələcəkdə də təşkil olunacaqdır.